# Ulu Öndər Heydər Əliyevin xatirəsi yad edilib

**AMEA-nın Azad Həmkarlar İttifaqının təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci il dönümünə həsr edilmiş tədbir keçirilib.**

Tədbirdən əvvəl Azad Həmkarlar İttifaqının kollektivi Fəxri Xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, hörmət və ehtiramlarını ifadə ediblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Tədbirdə alimlər, AMEA-nın Rəyasət Heyətinin, eləcə də elmi müəssisə və təşkilatları təmsil edən həmkarlar ittifaqı təşkilatlarının sədrləri və əməkdaşlar iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə iştirakçılar Vətən uğrunda canını fəda etmiş şəhidlərimizin ruhunu bir dəqiqəlik sükutla yad edərək dərin ehtiramlarını ifadə ediblər.

AMEA-nın Azad Həmkarlar İttifaqının sədri s.e.ü.f.d., dosent Sənan Həsənov giriş nitqi ilə çıxış edərək Ulu Öndər Heydər Əliyevin zəngin



dövlətçilik irsinin tarixi, siyasi, eyni zamanda elmi müstəvidə dərin təhlil edilməsinin zəruriliyindən söz açıb. Qeyd edib ki, Heydər Əliyevin idarəçilik fəlsəfəsi, strateji düşüncə tərzi və milli maraqlara əsaslanan qərarları müasir elmi araşdırmalar üçün mühüm baza rolunu oynayır. Bu irsin sistemli tədqiqi gələcək nəsillərə milli inkişafın fundamental əsaslarını daha aydın anlamağa imkan verir. Bildirib ki, bu gün AMEA-nın institutlarında Ulu Öndərin həyat və fəaliyyətinə dair tədqiqatlar aparılır, onun siyasi kursunun elmi əsaslarla öyrənilməsi davam etdirilir.

Sənan Əliyev Akademiyanın həmkarlar ittifaqının ölkə səviyyəli tədbirlərdə fəal iştirakını da qeyd edib, təşkilatın AMEA-nın alimlərinin və əməkdaşlarının sosial-mədəni rifahına dəstəyini vurğulayaraq fəaliyyətini dəyərləndirib.

O, həmçinin qeyd edib ki, AMEA Azad Həmkarlar İttifaqı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının və AMEA Rəyasət Heyətinin təşkil etdiyi bir sıra mötəbər tədbirlərdə fəal şəkildə təmsil olunur. Bu qəbildən, ötən ay keçirilmiş “Heydər Əliyev: şəxsiyyətin miqyası və missiyası” adlı fundamental kollektiv monoqrafiyanın təqdimat mərasiminin xüsusi əhəmiyyət kəsb etdiyini və burada həmkarlar ittifaqı təşkilatlarının nümayəndələrinin də iştirak etdiyini vurğulayıb.

Tədbirdə çıxış edən AMEA-nın Rəyasət Heyəti aparatının Mülki Müdafiə şöbəsinin müdiri Nizami Vəliyev, gənc Heydərçi, tələbə Sənan Hüseynov və başqaları Ulu Öndər Heydər Əliyevin xalqımıza, dövlətçiliyimizə və elmimizə bəxş etdiyi əvəzsiz töhfələr barədə fikirlərini bölüşüblər. Qeyd olunub ki, Heydər Əliyev fenomeni yalnız siyasi deyil, həm də elmi və mənəvi dəyərlər sisteminin mühüm sütununa çevrilib. Onun dövlətçilik fəaliyyəti Azərbaycan tarixində misilsiz iz qoyub, iqtisadiyyata, sosial inkişafa, elm və təhsilə verdiyi önəm isə bu sahələrdə əsaslı islahatlar və davamlı inkişaf üçün zəmin yaradıb.

Sonda Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

Elm .- 2025.- 8 may(№16).- S.5.